**Seyidova, Z.** Əcəmi Naxçıvaninin sözsüz poeması - Möminə xatun türbəsi / Zenfira Seyidova // 525-ci qəzet.-2025.- 19 iyun.- № 104.- S.14.

Bu gün sizinlə Azərbaycan xalqının tarixi yaddaşında və mədəni kimliyində mühüm yer tutan, əsrlərin sınağından çıxaraq günümüzə qədər gəlib çatmış möhtəşəm bir abidə - Möminə xatun türbəsi haqqında danışmaq istəyirəm. Bu türbə sadəcə memarlıq nümunəsi deyil, bütöv bir xalqın estetik düşüncəsinin, mənəvi dəyərlərinin, dövlətçilik ənənələrinin və qadına göstərdiyi ehtiramın daşlaşmış təcəssümüdür. XII əsrin parlaq sənətkarı Əcəmi Naxçıvani tərəfindən ucaldılmış bu türbə təkcə Naxçıvanın deyil, bütün Azərbaycanın fəxri, İslam memarlığı tarixində isə nadir incilərdən biridir. O dövrdə qadın adına belə bir abidənin tikilməsi, həm cəmiyyətin mədəni səviyyəsini, həm də qadının ailədə və dövlətdə tutduğu yüksək mövqeyi açıq şəkildə əks etdirir. Möminə xatun türbəsi həm də Şərq memarlığının zirvələrindən biri olaraq, elmi-estetik həlləri, yazı kompozisiyaları və zərif ornamentləri ilə minillərin dərinliyindən bu günə səslənən mədəniyyət çağırışıdır.

Möminə xatun türbəsi bizim tariximizin canlı yaddaşıdır. Bu abidə sadəcə memarlıq əsəri deyil, xalqımızın estetik dünyagörüşünün, zövqünün və mənəviyyatının simvoludur. Əcəmi Naxçıvani kimi dahi bir sənətkarın yaratdığı bu monumental tikili, yüzillər boyu azərbaycanlıların kimliyini, zövqünü, sənətə münasibətini təcəssüm etdirib.

Bu abidənin özəlliyi ondadır ki, o, qadına - anaya həsr olunub. Azərbaycan mədəniyyətində qadına hörmətin, ehtiramın ən uca simvoludur bu türbə. XII əsrdə bu cür nadir sənət əsərinin qadın adına tikilməsi xalqımızın qadına necə bir mövqedə yanaşdığını açıq şəkildə göstərir.

Möminə xatun təkcə bir tarixi şəxsiyyət deyil, Azərbaycan qadınının düşüncə dərinliyinin, ailəyə və dövlətə verdiyi töhfənin obrazıdır. Və həmin obraz bu gün də bizim həyatımızda yaşayır, yaşadılır. Bu türbə Naxçıvanın mədəni simasıdır. O, yalnız bir memarlıq abidəsi deyil, həm də Azərbaycan memarlıq məktəbinin beşiyi hesab olunur. Onun memarlıq dili çox danışır - həm estetik gözəllikdən, həm də dərin fəlsəfədən. Əcəmi Naxçıvani bu əsərdə yalnız daşlarla danışmayıb - o, sözləri, fikirləri, hissləri daşlara həkk edib. Oradakı yazılar, naxışlar, ölçülər - hər biri bir hikmət daşıyır. Ona görə də bu türbə həm göz, həm də ruh üçün tikilib.

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin Möminə xatun türbəsinin bərpası və konservasiyası ilə bağlı imzaladığı Sərəncam bu abidənin yalnız daş divarlarını deyil, mənəvi məzmununu da yenidən işıqlandırır. Bu sərəncam, əslində, dövlətin tarixə və mədəniyyətə münasibətini, keçmişə verdiyi dəyəri və gələcəyə olan məsuliyyət hissini əks etdirir. Dövlət başçısının bu qərarı mədəniyyət sahəsində sistemli və ardıcıl siyasətin davamı olaraq milli yaddaşımızın təmiri, kimliyimizin möhkəmləndirilməsi baxımından son dərəcə önəmlidir. Sərəncamda türbənin yalnız fiziki deyil, həm də tarixi və estetik baxımdan orijinal vəziyyətinə qaytarılması, elmi əsaslarla bərpası və memarlıq üslubunun qorunması önə çəkilir. Bu isə o deməkdir ki, Azərbaycan dövləti tarixi abidələrə yalnız texniki

yanaşmır - bu, bir mədəni strategiya, milli ideologiyanın tərkib hissəsidir. Mömine xatun türbəsinin bərpası təkcə keçmişə ehtiram deyil, həm də gələcəyin quruculuğudur. Çünki tarixini tanımayan xalq sabahını müəyyən edə bilməz. Bu abidə bizim keçmişimizə bir güzgü, gələcəyimizə isə bir yol xəritəsidir. Onun bərpası milli ruhun bərpasıdır, yaddaşın təzələnməsidir, şüurun oyanışıdır. Burada söhbət sadəcə memarlıq nümunəsindən deyil, xalqın ruhuna hopmuş, onun kimliyini formalaşdırmış bir simvoldan gedir. Möminə xatun türbəsi bizi biz edən əsas sütunlardan biridir - o sütun ki, əsrlər boyu zamanın tufanlarına tab gətirib, bu gün də əzəmətini qoruyur. Bu abidənin qorunması və gələcək nəsillərə ötürülməsi isə bizim üzərimizə düşən tarixi və vətəndaşlıq borcudur.

Sərəncamın imzalanması həm də o deməkdir ki, dövlətimizin mədəni prioritetləri yalnız paytaxtla məhdudlaşmır. Azərbaycanın bütün bölgələri, xüsusən də qədim Naxçıvan diyarı bu siyasətdə xüsusi yer tutur. Bu abidə yalnız regionun deyil, bütöv millətin mədəni sərvətidir. Bu qərarla dövlətin diqqəti bir daha mərkəzdən kənarda yerləşən, amma mədəni dəyərinə görə mərkəzdə dayanan irsimizə yönəlmişdir. Möminə xatun türbəsinin bərpası həm də Naxçıvanın tarixi simasının və mədəni cazibəsinin gücləndirilməsinə xidmət edəcək, turizm potensialını artıracaq, eyni zamanda gənclərdə tarixi abidələrə münasibətdə vətənpərvərlik və qoruyuculuq hissini gücləndirəcək.

Əslində, belə qərarlar millətin öz dəyərlərinə, yaddaşına, mədəniyyətinə verdiyi qiymətin dövlət səviyyəsində ifadəsidir. Prezidentin bu sərəncamı təkcə bir sənəd deyil - bu, milli ruhun, mədəni iradənin, strateji baxışın təzahürüdür. Sərəncamla bizə bir daha xatırladılır: tarixi yaşatmaq dövlətin və xalqın birgə vəzifəsidir. Möminə xatun türbəsi bu baxımdan həm mədəniyyət obyektidir, həm də milli-vətəndaşlıq tərbiyəsinin canlı məkanıdır. Burada dayanan hər bir insan, istər azərbaycanlı, istər əcnəbi, bu xalqın zəngin tarixi, yüksək estetik duyumu və qadına verdiyi dəyər qarşısında heyran qalır. Bu abidəyə baxan hər kəsə mesaj verilir: Azərbaycan xalqı böyük mədəniyyətin daşıyıcısıdır və bu mədəniyyəti yaşatmaq üçün əzmlidir.

Bu gün biz təkcə keçmişi xatırlamırıq, eyni zamanda o keçmişi gələcəyə daşıyırıq. Möminə xatun türbəsi bu mənada bir körpüdür - tarixlə gələcəyimizi birləşdirən mənəvi körpü. Uşaqlarımız bu türbəni görməlidir. Gənclərimiz bu sənət incisinin qarşısında dayanıb düşünməlidir: "Biz kimik? Haradan gəlmişik?" Çünki tariximizi anlamaq gələcəyimizi düzgün qurmağın yeganə yoludur. Burada dayanıb bu türbəyə baxan istənilən insan, istər yerli, istərsə də xarici, Azərbaycan mədəniyyətinin dərinliyini və qədimliyini hiss edə bilir. O abidə susur, amma eyni zamanda min illərin səsini danışır.

Bu gün abidənin yenidən işıqlandırılması, ona yeni nəfəs verilməsi milli qürurumuzun, mədəni özünüdərkin nümunəsidir. Hər bir millət öz yaddaşına sahiblənməlidir və bu türbə bizim yaddaş kitabımızın ilk səhifələrindəndir. Bu abidəyə baxmaq bir tarix dərsini canlı şəkildə yaşamaq kimidir. Biz tarixə ancaq

kitablarda deyil, belə daşlarda da rast gəlirik. Və bu daşlar danışır, sadəcə qulaq vermək lazımdır.

Möminə xatun türbəsi eyni zamanda ümumbəşəri bir abidədir. Bu gün UNESCO səviyyəsində tanınan memarlıq nümunələri sırasında yer almağa layiq bir sənət əsəridir. O, Şərq memarlığının fəxridir.

Biz Naxçıvanda təkcə bir region deyil, bütöv Azərbaycan mədəniyyətinin köklərini görürük. Bu türbə də o köklərin yeraltından çıxmış, daşlaşmış halıdır. Əgər biz bu abidəyə sahibləniriksə, deməli, köklərimizi tanıyırıq. Və bu sahiblənmək sadəcə fiziki təmir deyil - bu, bir milli şüur məsələsidir. Bu abidə bizə deyir: "Mən buradayam. Məni unutmayın. Mən sizin keçmişinizəm. Və siz keçmişinizi unutmasanız, gələcəyiniz də parlaq olacaq". Bu türbənin qorunması bizim mədəni suverenliyimizin ifadəsidir. Dünya dəyişə bilər, dövrlər ötüb keçə bilər, amma Möminə xatun türbəsi kimi abidələr millətin ruhunu daşıyır. Hər bir insanın şəxsi yaddaşı olduğu kimi, hər bir xalqın da tarixi yaddaşı var. Möminə xatun türbəsi bizim kollektiv yaddaşımızın daşlaşmış simasıdır.

Bu gün onun yenidən diqqət mərkəzinə çəkilməsi onu göstərir ki, Azərbaycan xalqı tarixə laqeyd deyil. Biz mədəniyyətimizi sevirik, tarixi unutmuruq, abidələrimizi yaşadırıq. Sonda demək istəyirəm ki, Möminə xatun türbəsinin bərpası dövlətin mədəniyyət siyasətində bir dönüş nöqtəsi deyil, davamlı inkişafın, ardıcıl yanaşmanın təzahürüdür. Bu qərar hər bir vətəndaşı tarixə sahiblənməyə, dəyərləri qorumağa, mədəni irsi gələcəyə ötürməyə çağırır. Gəlin, bu çağırışa səs verək. Gəlin, tariximizin bu parlaq simasını birgə yaşadaq - yaddaşımızda, qürurumuzda və gələcək planlarımızda. Ona görə də bu türbə, bu abidə bizim üçün müqəddəsdir. Çünki o, sadəcə keçmişin deyil, gələcəyin də açarıdır. Və inanırıq ki, Möminə xatun türbəsi gələcəkdə də həm milli, həm də beynəlxalq səviyyədə böyük maraq doğuracaq.  Bu maraq isə Azərbaycan mədəniyyətinin və tarixinin gələcək nəsillərə, regiona və bütün dünyaya verdiyi güclü, ilhamverici mesajdır.